# AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ





**Bu gün iqtisadi sahədə aparılan islahatlar artıq Azərbaycanda tamamilə yeni bir investisiya iqlimi yaratmışdır. Əgər əvvəlki illərdə investisiyalar daha çox neft-qaz sahəsinə qoyulurdusa, bu gün qeyri-neft sektoruna qoyulan sərmayə milyardlarla dollar səviyyəsindədir. Əldə edilmiş razılaşmalar, imzalanmış kontraktlar yaxın bir neçə ildə özünü elə göstərəcək, sıçrayış elə böyük olacaq ki, bunu hər kəs görəcək.**

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyevin andiçmə mərasimindəki nitqindən,
14.02.2024

# Mərkəz haqqında

↘

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) 2016-cı il aprel ayının 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fərmanı ilə təsis olunub.

# MƏRKƏZ HAQQINDA

## Missiya

1. Aparılan iqtisadi islahatların əhatə dairəsinin genişləndirilməsini və bu sahədə işlərin səmərəli əlaqələndirilməsini;
2. Mütərəqqi elmi-texniki çağırışlardan, stimullaşdırıcı mexanizmlərdən və innovasiyalardan istifadə etməklə yeni konseptual yanaşmaların tətbiqini;
3. Mövcud iqtisadi potensialdan və əlverişli investisiya mühitindən daha səmərəli istifadəni, həmçinin bu sahədə təşviqat və ictimai iştirakçılıq sistemlərinin tətbiqini təmin etmək.

## Məqsədlər

1. Azərbaycan Respublikasında iqtisadi islahatların həyata keçirilməsinə və sahibkarlığın inkişafına töhfə vermək;
2. Strategiya, dövlət proqramları, tədbirlər planları, yol xəritələri və digər dövlət əhəmiyyətli tapşırıqların icrasının monitorinq və qiymətləndirməsini həyata keçirmək və bu prosesi daha da təkmilləşdirmək;
3. Makro və mikro iqtisadi səviyyələrdə təhlil və tədqiqatlar aparmaq, müvafiq proqnozlar hazırlamaq;
4. Azərbaycan Respublikasında qeyri-neft sektoru üzrə ixracın artmasına töhfə vermək;
5. İqtisadiyyatın müxtəlif sahələrində Azərbaycan Respublikasının nailiyyətlərinin təbliğini və kommunikasiyasını təşkil etmək.

# Monitorinq və qiymətləndirmə fəaliyyəti

Monitorinq və qiymətləndirmə (MQ) İİTKM-in əsas fəaliyyət istiqamətlərindən biridir və Mərkəz bu sahə üzrə ixtisaslaşıb.

# MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ FƏALİYYƏTİ

## Monitorinq və qiymətləndirmə fəaliyyətinin istiqaməti

Qurum yarandığı gündən bu günə kimi islahat və koordinasiya tədbirləri ilə yanaşı, öz səlahiyyətləri çərçivəsində dövlət başçısının tapşırığı, eləcə də ayrı-ayrı dövlət qurumlarının sifarişləri əsasında strategiyalar, dövlət proqramları, yol xəritələri və digər tədbirlər planlarının icra vəziyyətlərinin monitorinq və qiymətləndirilməsini həyata keçirir.

Mərkəz bu vəzifəni beynəlxalq təşkilatların tövsiyələrindən, habelə innovativ həllərdən, Dünya Bankı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, BMT strukturları və digər beynəlxalq təşkilatların monitorinq və qiymətləndirmə sahəsində uğurlu təcrübələrindən faydalanmaqla icra edir.

## “monitoring.gov.az” - monitorinq və qiymətləndirmədə rəqəmsal transformasiya

İİTKM dövlət idarəetməsinin rəqəmsallaşdırılmasına elektron monitorinq portalı ilə töhfə verir, monitorinq və qiymətləndirmə prosesində ən son innovativ və rəqəmsal həlləri tətbiq edir.

### Portalın səmərəliliyi

Azərbaycanda e-hökumət və e-məhkəmə ilə yanaşı, həm də e-monitorinq sisteminin yaradılması çevik və səmərəli dövlət idarəetməsini təmin edir.

# MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ FƏALİYYƏTİ

## “monitoring.gov.az” portalının əsas məqsədi

“monitoring.gov.az” portalının yaradılmasının əsas məqsədi strategiyalar, yol xəritələri, dövlət proqramları və tədbirlər planlarının monitorinqi və qiymətləndirilməsində qurumlar arasındakı kommunikasiya məsafəsini azaltmaq; monitorinq və qiymətləndirmə institutunu rəqəmsallaşdırmaq, sadələşdirmək və şəffaflaşdırmaqdır.

## “monitoring.gov.az” portalının missiyası

Portalın fəaliyyətə başlaması ölkədə monitorinq və qiymətləndirmə prosesinin hesabatlılıq, şəffaflıq, çeviklik, obyektivlik, qanunun aliliyi, səmərəli qərar qəbuletmə və yaxşı idarəetmə prinsiplərinə əsaslanmaqla koordinasiyasına imkan verir.

Portal ilk növbədə ədalətli təmsilçiliyə, bürokratik prosedurların azalmasına, cəmiyyətin ehtiyaclarının nəzərə alınmasına xidmət edir. Belə bir portalın istifadəyə verilməsi elektron platforma vasitəsilə təqdim olunan məlumatların həqiqiliyinin, tamlığının, etibarlılığının və sərbəst əldə olunmasının təmin edilməsinə, məlumat mübadiləsinə sərf olunan vaxtın maksimum azaldılmasına imkan verir.

## “monitoring.gov.az” portalının səmərəliliyi

“monitoring.gov.az” portalı strategiyaların, dövlət proqramları və tədbirlər planlarının monitorinqi və qiymətləndirilməsi nəticəsində “Böyük Verilənlər” (Big Data) bazası formalaşdırır.



Digər tərəfdən, bu, ölkəyə müasir texnologiyaların geniş tətbiqi ilə dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması, effektiv, şəffaf, nəzarət oluna bilən dövlət idarəetməsinin bərqərar olması, vətəndaşların dövlət idarəçiliyində və islahatların aparılması prosesində fəal iştiraka cəlb olunması kimi məsələlərdə də əlavə stimullar yaradır.

# MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ FƏALİYYƏTİ

## Monitorinq və qiymətləndirilməsi aparılan dövlət sənədləri

1. “AR-də qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı” (4 hesabat tərtib edilib)
2. “2019–2030-cu illər üçün AR-nin Məşğulluq Strategiyası” (3 hesabat tərtib edilib)
3. “Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı” (6 hesabat tərtib edilib)
4. “AR-nin 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”
5. “AR-nin işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”
6. “Naxçıvan MR-nin sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”
7. “AR-də sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı”
8. “Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023–2025-ci illər üçün Dövlət Proqramı”
9. “AR-nin ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün Fəaliyyət Planı”
10. “AR-nin işğaldan azad edilmiş ərazilərində 2024-2026-cı illərdə əhalinin məşğulluq imkanlarının artırılmasına dair Tədbirlər Planı”

## Monitorinq və qiymətləndirilməsi yekunlaşmış dövlət sənədləri

1. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərman ilə 2017-2020-ci illər üzrə 12 Strateji Yol Xəritəsi ilə bağlı ümumilikdə 60 monitorinq və qiymətləndirmə hesabatı hazırlanıb.
2. “2018-2020-ci illərdə AR-də rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı” üzrə 5 monitorinq və qiymətləndirmə hesabatı hazırlanıb.
3. “AR-də plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019–2020-ci illər üçün Tədbirlər Planı” üzrə 5 monitorinq və qiymətləndirmə hesabatı tərtib edilib.

# MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ FƏALİYYƏTİ

## Qiymət İzləmə Tətbiqi

İİTKM-in həyata keçirdiyi vahid monitorinq sistemlərindən biri də Qiymət İzləmə Tətbiqidir (QİT). Bu sistem idxal-topdansatış-pərakəndə ticarət və yerli istehsal-topdansatış-pərakəndə satış zəncirlərində qiymət dəyişikliklərini izləməyə imkan verəcək və müvafiq dövlət qurumları üçün mühüm qərar qəbuletmə aləti rolunu oynayacaq. QİT müxtəlif dövlət qurumları və özəl qurumların məlumat bazalarının dataları əsasında qiymətlərin formalaşma nöqtələrini müəyyənləşdirmək imkanı verəcək. Sistemin yaradılması ilə müxtəlif dövlət qurumlarına və özəl məlumat təchizatçısına yığılan məlumatlar vahid bazaya inteqrasiya olunacaq və texniki uyğunluğu aparılacaq. Bu yolla müxtəlif mənbələrdən toplanan məlumatların analitik təhlilini aparmaq mümkün olacaq.





### Sistemin yaratdığı imkanlar

1. Məlumatların təhlili, qiymət artımlarının səbəblərinin araşdırılması;
2. Preventiv tədbirlərin görülməsi;
3. İdxal, yerli istehsal, topdansatış və pərakəndə satış nöqtələrində qiymətlərin artımının izlənməsi.

# MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ FƏALİYYƏTİ

## Qiymət İzləmə Tətbiqinin işləmə mexanizmi

### İdxal



**Dövlət Gömrük Komitəsi**

Məhsulun adı

Statistik dəyər

İnvoys dəyəri

Əməliyyat haqqı

İdxal rüsumu

Miqdarı

ƏDV

### Topdansatış



**Dövlət Vergi Xidməti**

**Kənd Təsərrüfatı Nazirliyi**

**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti**

**Səhiyyə Nazirliyi**

Malın (işin, xidmətin) adı

Ölçü vahidi

Miqdarı, həcmi

Vahidin buraxılış qiyməti (manatla)

ƏDV məbləği (manatla)

### Pərakəndə satış



**Dövlət Vergi Xidməti**

**Kənd Təsərrüfatı Naz irliyi**

**Səhiyyə Nazirliyi**

**Dövlət Statistika Komitəsi**

Satıcı

Malın adı

Ölçü vahidi

Malın bir vahidinin qiyməti

**Qiymət İzləmə Tətbiqi**

# İqtisadi təhlil və strateji planlaşdırma

İİTKM-in əsas fəaliyyət istiqamətlərindən biri müvafiq analitik məlumatlar əsasında davamlı və genişmiqyaslı araşdırmalar aparmaq və bu araşdırmalar əsasında aidiyyəti dövlət qurumlarına təhlil, proqnoz və təkliflər verməkdir.

Bu funksiyanı yerinə yetirmək üçün Mərkəzdə Strateji planlaşdırma və İqtisadi təhlil şöbələri fəaliyyət göstərir.

# İQTİSADİ TƏHLİL VƏ STRATEJİ PLANLAŞDIRMA

Əsas təhlil obyekti kimi Azərbaycan dövlətinin həyata keçirdiyi sosial-iqtisadi siyasət tədbirləri və onların təsirləri çıxış edir.

Mərkəzin müvafiq struktur bölmələri tərəfindən Azərbaycan dövlətinin əldə etdiyi iqtisadi uğurlar, bu uğurlara aparan dinamika təhlil edilir, strateji hədəflərə çatmağın yolları planlaşdırılır, bu istiqamətdə cəmiyyətin məlumatlandırılması - əldə edilən nailiyyətlərin təbliği həyata keçirilir.

Bu məqsədlə media kanallarında və müvafiq elmi-publisistik platformalarda çıxışlar edilir, məqalələr yayımlanır. O cümlədən, müvafiq elm və tədris müəssisələri ilə birgə əməkdaşlıq şəraitində aktual istiqamətlərdə dərsliklər və dərs vəsaitləri hazırlanır, konfranslar təşkil edilir.

## İqtisadi laboratoriyada təqdim olunan modellər

İİTKM-in nəzdindəki fundamental iqtisadi təhlillərin aparılmasına xidmət edən “EconLAB” laboratoriyasında Azərbaycan iqtisadiyyatı üçün qurulan 5 iqtisadi-riyazi model təqdim edilir. Laboratoriyada qurulan modellərin siyahısı:

- Xərclər-buraxılış modeli
- Maliyyə proqramlaşdırılması modeli
- Ümumi tarazlıq modeli
- ORANI modeli
- Mikrosimulyasiya modeli
- Qravitasiya modeli

İqtisadi-riyazi modellər dinamik və statik təhlillərin aparılmasında istifadə edilir. Mövcud modellərdən istifadə etməklə makro, mezo və mikro səviyyədə ətraflı təhlillər aparılır.

Modellərdən - iqtisadi-riyazi üsullardan istifadə iqtisadi siyasətin (islahatların) formalaşdırılmasında qərar qəbuletmə prosesini zəruri və dolğun informasiya ilə təmin edir.

# Biznes mühiti

↘

İİTKM həm də Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın 25 işçi qrupu, 2 əlaqələndirmə qrupu, spesifik sahələr (ekoloji nəqliyyat, elmi potensial, sərhəddə ticarət və ESG) üzrə 4 altqrup və onun Katibliyinin müzakirələr apardığı platformadır.

Bu platformada dövlət, özəl, akademik, vətəndaş cəmiyyəti və beynəlxalq təşkilatların 660-dan çox nümayəndəsi cəmləşib. Komissiyanın işçi qruplarının icra və kommunikasiya planlarının koordinasiyası Nazirlər Kabinetinin tapşırığı əsasında İİTKM tərəfindən həyata keçirilir.

## Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiya

Komissiyanın yarımillik və illik planlarının müzakirəsi üçün həm onlayn qaydada, həm də Mərkəzdə üzbəüz görüşlər təşkil edilir, qurumların əlaqələndirilməsi həyata keçirilir, həmçinin görülən işlərini kommunikasiyası aparılır.

## “azranking.az” - islahatların rəqəmsal generasiyası

İİTKM-in operatoru olduğu “azranking.az” portalı Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın elektron idarəetmə platformasıdır.

### Portalın funksionallığı

Burada Komissiyanın əsasnaməsi, sədri və üzvləri haqqında məlumat, Komissiyanın tərkibində yaradılmış ayrı-ayrı fəaliyyət istiqamətləri üzrə işçi qruplar, həmçinin bu işçi qrupların alt işçi qrupları, onların illik fəaliyyət planları, keçirdikləri iclaslar, iclasların protokolları, islahat icmalları və s. məlumatlar təqdim olunur.

### Portalın əsas məqsədi

Dövlət-biznes dialoqu platforması olan portal Komissiyanın işçi qruplarının fəaliyyətinin əlaqələndirilməsi, iclas və görüşlərin təşkilini, həmçinin daxili məlumatların və müvafiq sənədlərin mübadiləsini həyata keçirir.

Azərbaycan Respublikası Prezidentinin 27 avqust 2018-ci il tarixli 431 nömrəli Sərəncamına əsasən yaradılmış, Azərbaycan və ingilis dillərində fəaliyyət göstərən “azranking.az” portalında beynəlxalq reytinqlər üzrə bütün məlumatlar, metodologiya, qiymətləndirmə və eyni zamanda, reytinq üzrə qiymətləndirilən bütün ölkələrin Azərbaycanla illər üzrə müqayisəli təhlil sistemi və digər funksiyalar mövcuddur.

# Dünya Bankının “Doing Business” hesabatı

### “Doing Business”də Azərbaycanın uğuru - “Ən islahatçı ölkə”

İİTKM “Doing Business” hesabatı üzrə Azərbaycanın mövqeyinin irəliləməsi məqsədilə bir sıra tədbirlər həyata keçirib, xüsusi buraxılışlar hazırlayıb.

Mərkəzin koordinatorluğu əsasında Dünya Bankının “Doing Business” hesabatının davamı olaraq 2024-cü ildən etibarən nəşr olunacağı planlaşdırılan “Business Ready” (BR) hesabatına hazırlıq mərhələsində  hesabatın missiyasına uyğun olaraq müvafiq qurumlardan daxil olmuş bütün materiallar nəzərdən keçirilir, müzakirə olunur və həmin qurumlarla əlaqəli şəkildə dəyişikliklər edilir.

## “Doing Business” nailiyyətləri

**2020**

Azərbaycan “Doing Business-2020” hesabatında islahatları inkişaf etdirən 20 ölkə sırasında olub.

**2019**

Dünya Bankının “Doing Business-2019” hesabatında Azərbaycan 190 ölkə arasında 25-ci pilləyə yüksələrək “Dünyanın 10 ən islahatçı dövləti” siyahısına daxil olub.

**2018**

Dünya Bankının açıqladığı “Doing Business-2018” hesabatında Azərbaycan 190 ölkə arasında 57-ci yerdə qərarlaşıb. Azərbaycan 2017-ci illə müqayisədə reytinqdə 8 pillə yüksəlib.



# Türk Dünyası Araşdırmalar Mərkəzi

İİTKM-in nəzdində 2023-cü ilin fevral ayında təsis olunmuş Türk Dünyası Araşdırmalar Mərkəzinin (TDAM) missiyası türk dünyasında iqtisadi əlaqələrin inkişafına töhfə verməkdir.

# TÜRK DÜNYASI ARAŞDIRMALAR MƏRKƏZİ

## TDAM-ın fəaliyyət istiqamətləri

1. “Türk Dünyası 2040 Vizyonu”;
2. “Türk Dövlətləri Təşkilatının 2022-2026 Strategiyası”;
3. Azərbaycan Respublikasının iqtisadi siyasəti çərçivəsində makro və mikroiqtisadi səviyyədə təhlil və tədqiqatlar aparmaq;
4. Türk Dövlətləri Təşkilatının (TDT) üzv və müşahidəçi ölkələri səviyyəsində dayanıqlı iqtisadi inkişafın təmin edilməsi istiqamətində elmi-analitik yanaşmalar ortaya qoymaq, həmçinin təklif, proqnoz və tövsiyələr hazırlamaq.

## TDAM-ın nəşrləri

TDAM-ın birbaşa koordinasiyası altında 2023-cü ildə 7 türk dövlətinin iqtisadi tədqiqatlar sahəsində tanınmış 35-dən artıq aliminin iştirakı ilə “Türk dövlətləri iqtisadiyyatı” kitabı nəşr olunub.

TDAM həmçinin 8 dildə (Azərbaycan, türk, qazax, qırğız, özbək, macar, rus və ingilis) türk dünyasına daxil olan ölkələrin iqtisadi vəziyyətləri barədə rüblük icmallar hazırlayır.

## Əməkdaşlıq etdiyi qurumlar

1. Türk Dövlətləri Təşkilatının Katibliyi
2. Beynəlxalq Türk Akademiyası
3. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu
4. “Türk Dünyasının İqtisadi Siyasət Araşdırma Mərkəzləri Şəbəkəsi” (ERCNET)
5. Türk Ağsaqqallar Birliyi

TDAM türk dünyasının interaktiv geoiqtisadi xəritəsinin hazırlanması ilə bağlı TDT Katibliyinə təklif təqdim edib. Hazırda layihənin reallaşdırılması üzərində iş aparılır.

Xəritə TDT-yə üzv dövlətlərin ticarət əlaqələri, investisiya imkanları və digər iqtisadi potensiallarının bir platforma üzərindən investorlara, biznesmenlərə və digər maraqlı tərəflərə çatdırılmasına xidmət edəcək.

# azexport.az

“azexport.az” portalı Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında” 21 sentyabr 2016-cı ildə imzaladığı Sərəncam əsasında təsis olunub.
Portal Azərbaycanda istehsal olunan malların vahid məlumat bazasıdır. Bu yolla yerli sahibkarlar öz məhsullarını ödənişsiz şəkildə bütün dünyada nümayiş etdirmək imkanına malikdirlər.

## AZEXPORT.AZ

### Portalın  əsas fəaliyyət istiqaməti

Portal Azərbaycan istehsalı olan rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların xarici bazarlara “Made in Azerbaijan” brendi adı altında çıxışını təşviq edir. “azexport.az” portalı ixracatçı sahibkarlara nəqliyyat, logistika, ödəniş və sertifikatlaşdırma sahəsində dəstək göstərir.

### Sərbəst satış sertifikatı

“Azexport” portalının təqdim etdiyi bu sertifikat insan orqanizmi ilə birbaşa təmasda olan tibbi avadanlıqların, dərman vasitələrinin və qida məhsullarının xarici bazarlara ixracı zamanı bəzi ölkələr tərəfindən tələb olunan sənədlərdən biridir. Bu sənəd bu kateqoriyadan olan “Made in Azerbaijan” məhsullarının ixracını asanlaşdırır. 2018-2024-cü illərdə 700-dən artıq adda məhsula sərbəst satış sertifikatı təqdim olunub.

Fəaliyyətə başladığı 2017-ci ilin yanvar ayından 2023-cü ilin iyul ayınadək “azexport.az” portalına dünyanın 150-dək ölkəsindən müxtəlif (sənaye, qida, tekstil, kənd təsərrüfatı, elm, mədəniyyət və s.) məhsullar üzrə ixrac sifarişləri daxil olub və bu sifarişlər davam edir.

“azexport.az” portalı “amazon.com”, “alibaba.com”, “ebay.com”, “all.biz”, “Go4worldbusiness.com”  kimi geniş auditoriyaya malik olan 15-dən artıq portala inteqrasiya olunub.

“azexport.az”ın fəaliyyət göstərdiyi müddət ərzində Azərbaycan məhsullarının beynəlxalq onlayn ticarət platformalarında mövcudluğu



## AZEXPORT.AZ

### “Azexport”un əməkdaşlıq etdiyi beynəlxalq qurumlar

1. Dünya Ticarət Təşkilatı (WTO)
2. Beynəlxalq Ticarət Mərkəzi (ITC)
3. Dünya Ticarət Mərkəzləri Assosiasiyası (WTCA)
4. Şərq Tərəfdaşlığı Təşəbbüsü (EU4Digital)
5. Beynəlxalq Biznes Rəsmiləri Akademiyası (AIBO)
6. ”Alibaba Group”
7. VISA International
8. “Mtrade Valley” təşkilatı
9. “Payoneer” rəqəmsal ödəniş platforması

### “Azexport”un əməkdaşlıq etdiyi beynəlxalq alqı-satqı platformaları

1. amazon.com
2. alibaba.com
3. ebay.com
4. all.biz
5. go4worldbusiness.com



## “Azexport”un nailiyyətləri

- İlk dəfə “Made in Azerbaijan” məhsullarını, o cümlədən, ABAD məhsullarını “amazon.com” və “ebay.com” platformalarında beynəlxalq alıcılara təqdim edib;
- Azərbaycanın regionlarında 2500-ə yaxın sahibkarla görüş keçirib və bu görüşlər davam edir;
- E-ticarət və ixrac mövzularında 50-dən artıq təlim və seminar təşkil edib və bu istiqamətdə fəaliyyətləri davam edir;
- Portal ABŞ, Çin, İngiltərə, Türkiyə, Belçika, Estoniya, İtaliya və Özbəkistan kimi ölkələrdə 50-dək beynəlxalq tədbirdə təqdim olunub;



- “azexport.az” portalı BMT-nin UNESCAP komissiyasının hazırladığı nəşrdə “Ən yaxşı təcrübə” bölməsinə daxil edilib;
- Regionun ilk virtual sərgi və konfrans məkanını istifadəyə verib;
- Avropa İttifaqının rəsmi internet portalında ““Azexport” Aİ-də uğurlu elektron ticarət layihəsidir” fikirlərinə yer verilib.

# “Bir pəncərə” İxraca Dəstək Mərkəzi

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzi 2017-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı əsasında təsis olunub.

İxracatçı sahibkarlar tələb olunan bütün sertifikatları “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən daha tez, səmərəli, əlavə resurs və vaxt sərf etmədən əldə edə bilirlər.

# “BİR PƏNCƏRƏ”
# İXRACA DƏSTƏK MƏRKƏZİ

## Mərkəzin əsas məqsədi

Mərkəz yerli sahibkarlara konsultasiyaların verilməsi, biznes planın yazılması, gömrük bəyannamələrinin real vaxt rejimində doldurulması və ixrac subsidiyalarının verilməsi ilə bağlı dəstək göstərir.



**16 000**
**müraciət**

Bu müddət ərzində 16 000 sahibkar müraciəti qeydə alınıb.

## Mərkəzin uğuru

2017-2024-cü illər ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə 1 milyard ABŞ dollarından çox həcmdə qeyri-neft məhsullarının ixracı həyata keçirilib.

**1 mlrd.**
**ABŞ $**



# “BİR PƏNCƏRƏ”
# İXRACA DƏSTƏK MƏRKƏZİ

## “Bir Pəncərə” İxraca Dəstək Mərkəzində 5 dövlət qurumu xidmət göstərir

- İqtisadiyyat Nazirliyi

  İqtisadiyyat Nazirliyi tərəfindən ixrac olunan məhsulun məxsus olduğu ölkəni təsdiqləyən mənşə sertifikatı verilir.

- Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi

  Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən ixrac olunan yeyinti məhsullarına idxalçı ölkələrin tələblərinə uyğun qida təhlükəsizliyi sertifikatı; bitki və bitkiçilik məhsullarına fitosanitar; heyvan və heyvan mənşəli məhsullara, xammal, yem və yem əlavələri məhsullarına isə beynəlxalq baytarlıq sertifikatı verilir. Bundan başqa, qida sahəsində fəaliyyət göstərən sahibkarların dövlət qeydiyyatı və dövlət reyestrinin aparılması prosesi də AQTA tərəfindən reallaşdırılır.

- Ekologiya və Təbii Sərvətlər Nazirliyi

  Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən nadir və kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin ixracı üçün CITES beynəlxalq icazə sertifikatı verilir.

- Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

  Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dini məzmunlu ədəbiyyatın, audio və video materialların ixracı ilə bağlı icazə sənədi verilir.

- Mədəniyyət Nazirliyi

  Mədəniyyət Nazirliyi tərəfindən mədəni sərvətin (xalça və xalça məmulatları, rəsm əsərləri, sənətkarlıq nümunələri, musiqi alətləri və zərgərlik əşyaları) ixracı zamanı mədəni sərvəti mühafizə şəhadətnaməsi verilir.

# "BİR PƏNCƏRƏ"
# İXRACA DƏSTƏK MƏRKƏZİNİN
# İXRAC COĞRAFİYASI



## "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə ən çox ixrac edilən məhsullar

1. Qiymətli metallar
2. Pambıq mahlıcı
3. Polad armatur yarması
4. Meyvə şirələri və spirtsiz içkilər
5. Pendir
6. Dondurma məhsulu və dondurma vaflisi
7. Qənnadı məmulatları
8. Akva kultur üsulu ilə yetişdirilən nərə cinsli balıqların kürüsü
9. Biyan kökü
10. Tibbi zəli

## Ən çox ixrac edilən 10 ölkə

1. İsveçrə
2. Türkiyə
3. Rusiya
4. Gürcüstan
5. İtaliya
6. Qazaxıstan
7. Qırğızıstan
8. Özbəkistan
9. Çin
10. Türkmənistan



# Rəqəmsal Ticarət Qovşağı

↘

Rəqəmsal Ticarət Qovşağı (Digital Trade Hub - DTH) - Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı əsasında təsis olunub.

## DTH-ın məqsədi

DTH Azərbaycan dövləti tərəfindən yaradılan sərhədlərarası kağızsız ticarətin aparılması və məsafədən biznes əməliyyatlarının təqdim edilməsi üçün rəqəmsal resursdur.

## DTH-ın faydaları

- Transsərhəd ticarətin, o cümlədən elektron ticarətin əhatə dairəsinin genişləndirilməsini təmin edir;
- İKT-dən səmərəli istifadəni təmin etməklə ixrac potensialının yüksəldilməsinə müsbət təsir göstərir.

## DTH-ın uğuru

Qovşaq dünyada ilk dəfə onlayn vahid ixrac ərizəsi və m-Rezidentlik (mobil) təqdim edib. DTH vasitəsilə həm əcnəbi vətəndaşlar, həm də yerli ixracatçılar öz tərəfdaşları ilə vahid platforma üzərindən əməliyyatlar apara bilərlər.

**Digital Trade HUB**
of Azerbaijan



## DTH-ın təqdim etdiyi xidmətlər

DTH-ın operatoru olduğu “m-residency.az” portalı - Asan İmza (Mobile ID) əldə etmiş qeyri-rezidentlər üçün Azərbaycanda təqdim olunan elektron xidmətlərin məsafədən əlçatanlığını təmin edən rəqəmsal platformadır.

### “m-residency.az” vasitəsilə məsafədən göstəriləcək xidmətlər

1. 3 dildə xidmət göstərilməsi;
2. Fiziki şəxslər üçün bank hesabının açılması və e-bank xidmətlərinin göstərilməsi;
3. Vergi və gömrük xidmətlərinin göstərilməsi;
4. Şirkətin açılması və dünyanın istənilən yerindən idarə olunması;
5. İşə qəbul prosesinin həyata keçirilməsi;
6. Sənədlərin hazırlanması, təhlükəsiz qaydada şifrələnməsi, göndərilməsi və imzalanması.

### “m-residency.az”ın üstünlükləri

1. Azərbaycanın investisiya mühitini beynəlxalq investorlar üçün daha əlçatan edir;
2. Elektron xidmətləri məsafədən əlçatan edir;
3. Beynəlxalq kağızsız ticarət, biznes və hökumət prosedurlarını asanlaşdırır;
4. Süni intellekt həllərinin tətbiqinə imkan verməklə innovativ təşəbbüsləri dəstəkləyir;
5. “Metaverse” virtual məkanında əməkdaşlıqlar qurmaq imkanı yaradır;
6. Beynəlxalq biznes əməliyyatlarını və iş proseslərini asanlaşdırır;
7. İnternetə çıxışı olan hər hansı bir cihazdan və istənilən yerdən platformaya daxil olmaq imkanı verir;
8. Rahat və sürətli xidmət təklif edir;
9. Vergi, gömrük, bank, elektron imza, şirkətin idarə edilməsi, konsaltinq və digər onlayn xidmətlərdən “bir pəncərə” sistemi vasitəsilə yararlanma fürsəti verir.

## DTH-ın əhatə dairəsi



DTH vasitəsilə 21 ölkədən 60-a yaxın qeyri-rezident rezidentlik əldə edib. Müraciətlər əsasən Türkiyə, İran, Pakistan, Yaponiya və İsveçdən daxil olub. Bundan başqa, Avropa ölkələrindən Almaniya, İsveç, Birləşmiş Krallıq, Estoniya, İtaliya və Belarus; ərəb ölkələrindən Səudiyyə Ərəbistanı, BƏƏ və İordaniya kimi ölkələrin vətəndaşları m-rezidentlik əldə ediblər. Onların bir qismi artıq Azərbaycanda öz biznesinə başlayıb.

↘

İİTKM-in operatoru olduğu www.enterpriseazerbaijan.gov.az portalı Prezident İlham Əliyevin 19 sentyabr 2018-ci il tarixli "Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına əsasən təsis olunub.

# Enterprise Azerbaijan

# ENTERPRISE AZERBAIJAN

## Dövlət-sahibkar-investor üçlüyünün mütəmadi görüşdüyü və birgə inkişaf etdiyi platformadır



## Portalın yaratdığı imkanlar

1. Enterprise inkubasiya - ilkin mərhələdə olan startapların inkişafı və MVP-nin (Minimum Viable Product – İlkin Məhsul) yaradılması;
2. Enterprise akselerasiya - şirkətlərin yaradılması və bazara təqdim olunması;
3. Enterprise investisiya - startapların investorlara təqdim olunması;
4. Startup School - sahibkarlığın inkişafı üçün startapları biznesə çevirən məktəb.

## Məqsəd və vəzifələri

1. Ölkədə sahibkarlığın inkişafına dəstək olmaq;
2. Yeni ideya, startap, investisiya və ya biznes layihələrinin həyata keçirilməsində alternativ maliyyə mənbələrini ölkə iqtisadiyyatına cəlb etmək;
3. İdeya və layihələrin yerli və xarici investorların diqqətinə çatdırmaqda vasitəçi olmaq;
4. Ölkədə fəaliyyət göstərən sahibkarlara və startaplara layihələrini dünya standartlarına uyğunlaşdırmaqda və təkmilləşdirməkdə köməklik göstərmək;
5. Potensial investor axtarışında olan layihə təşəbbüskarları (promoterlər) ilə investisiya yatırmaq üçün axtarışda olan investorları mütəmadi yenilənən, istifadəyə rahat, sürətli və əlverişli məkanda bir araya gətirməklə "ağıllı ekosistem" yaratmaq.

Enterprise Azerbaijan

# ENTERPRISE AZERBAIJAN

## Portalın funksionallığı

1. Portal “Startap Azerbaijan HUB” kimi fəaliyyət göstərir;
2. İnvestor üçün lazım olan bütün prosedurlar sadə infoqrafikalar vasitəsilə Azərbaycan, rus və ingilis dillərində təqdim olunur;
3. Azərbaycanda ilk dəfə olaraq sahibkar və investorlara bütün coğrafi obyektləri ehtiva edən “Geoiqtisadi xəritə”dən istifadə imkanı verilir;
4. Ərazi, kateqoriya və investisiyaya uyğun olaraq layihə axtarmaq imkanı verilir;
5. Layihələr portal üzərindən kraudfandinq, kraudinvestinq, toxum investor, mələk investor, vençur investor və digər alətlərdən istifadə edərək bütün dünyadan sərmayə cəlb edə bilir.

## “Enterprise Azerbaijan”ın yeni layihələri

### “AI for Green Solidarity” layihəsi

Layihənin əsas məqsədi ağıllı şəhər, yaşıl texnologiyalar, kənd təsərrüfatı, alternativ enerji mənbələrindən istifadə, bərpa olunan enerji və tullantıların idarə olunması kimi sahələrdə mövcud olan problemlərin həllində süni intellektin (artificial intelligence - AI) imkanlarından istifadə etmək və yaradıcı gəncləri bu prosesə təşviq etmək, onların ideyalarının biznesə çevrilməsinə dəstək olmaq və milli startapların xarici bazara inteqrasiyasını asanlaşdırmaqdır.

Layihə ABŞ-ın Nevada Universiteti və Almaniyanın Süni İntellekt Araşdırma Mərkəzi ilə birgə icra olunur.

## ENTERPRISE AZERBAIJAN

### “Startup School” layihəsi - layihələrinizi bizimlə biznesə çevirin!

Layihə “Enterprise Azerbaijan” portalı və ABŞ-ın Nevada Universitetinin Özmən Sahibkarlıq Mərkəzinin birgə əməkdaşlığı ilə daha çox gəncin ideyalarını reallığa çevirmək və onlara dəstək olmaq məqsədilə yaradılıb.

### Layihənin məqsədi

1. Müasir tədris metodları ilə Azərbaycan gənclərinə innovativ sahibkarlıq ruhunu və mədəniyyətini aşılamaq;
2. Sahibkarlıq və biznesin idarə edilməsi üçün startaplara dəstək olmaq;
3. Milli layihələrə qlobal startap ekosisteminə daxil olmaq imkanı yaratmaq;
4. Gənc startapçıları yerli və xarici investorlarla bir platformada görüşdürmək;
5. Startaplarla alternativ maliyyə mənbələrini ölkə iqtisadiyyatına cəlb etmək, kiçik və orta biznesin böyüməsini stimullaşdırmaq.

### Birinci “Startup School” layihəsinin nailiyyətləri

1. Dünyanın 10-a yaxın ölkəsindən (ABŞ, Almaniya, İrlandiya, Türkiyə, Mavritaniya, Pakistan, Qazaxıstan, Azərbaycan və s.) 200-dən çox layihənin beynəlxalq platformada rəqabət aparmasına şərait yaratdıq;
2. ABŞ, İsrail, Polşa, Türkiyə və Azərbaycandan olan professorlar və beynəlxalq ekspertlər tərəfindən 60 saatdan artıq onlayn və oflayn təlimlərin keçirilməsinə nail olduq;
3. 1-ci yerin qalibi olmuş komandanın üzvlərinin ABŞ-da I2B təlimində iştirakını təmin etdik;
4. Ölkəmizin startap ekosisteminin inkişafına, eləcə də onun qlobal ekosistemə inteqrasiyasının sürətləndirilməsinə töhfə verdik.

# Nəşrlər

İİTKM monitorinq və qiymətləndirmə, həmçinin iqtisadi islahatların təhlili fəaliyyəti ilə yanaşı, elmi jurnal və ayrı-ayrı istiqamətlər üzrə icmallar hazırlayır, müxtəlif mövzularda kitablar nəşr edir.

# NƏŞRLƏR

## Kitablar

İİTKM iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə kitablar - dərslik və monoqrafiyalar hazırlayır.

1. Yeni Qarabağnamə
2. İqtisadi artım
3. Yaşıl iqtisadiyyat
4. Rəqəmsal iqtisadiyyat
5. Türk dövlətləri iqtisadiyyatı
6. İnnovasiya və sahibkarlıq: startap ekosistemi
7. İslam maliyyə sistemi və onun Azərbaycandakı perspektivləri
8. Aqrar sahədə rəqabətqabiliyyətli məhsul istehsalı: qloballaşmanın çağırışları və inkişaf imkanları
9. Beynəlxalq ticarət müqavilələri hüququnun unifikasiyası
10. Azərbaycanda “Monitorinq və qiymətləndirmə: 2016-2021”

## Jurnallar

“İqtisadi islahatlar” elmi-analitik jurnalı

3 dildə (Azərbaycan, rus və ingilis) çap olunan jurnal ölkənin dayanıqlı iqtisadi inkişafının təmin edilməsi istiqamətində makro və mikroiqtisadi səviyyədə təhlil və tədqiqatların, habelə orta və uzunmüddətli dövrdə proqnozların müzakirəsi üçün platforma kimi çıxış edir.

## İcmallar

1. “İxrac icmalı”
   Hər ay yayımlanır. İcmalın məqsədi qeyri-neft sektoruna aid ixrac statistikasını təqdim etmək və yerli malların xarici bazarlara çıxarılması imkanlarının genişləndirilməsinə töhfə verməkdir.
2. “İslahat icmalı”
   Xüsusi buraxılış kimi hazırlanır. Vətəndaşlara xidmət sahəsində dövlət qurumlarında aparılan islahatlar, tətbiq edilən yeniliklər barədə məlumatları ehtiva edir.
3. “Türk iqtisadi icmalı”
   Rüblük dövrilikdə 8 dildə (Azərbaycan, türk, qazax, qırğız, özbək, macar, rus və ingilis) hazırlanır. İcmalın məqsədi türk dünyasına daxil olan ölkələrin iqtisadi vəziyyətləri barədə məlumatları ümumiləşdirmək və bu məlumatları həmin ölkələrin müvafiq qurumlarına ötürməkdir.
4. “Həftəlik icmal”
   Mərkəzin həftəlik fəaliyyətini əks etdirən icmaldır.
5. “Video icmal”
   Audiovizual vasitələrdən istifadə etməklə Mərkəzin fəaliyyətini təqdim edir.

# Elektron mövcudluq

↘

İİTKM-in balansında 27 rəqəmsal resurs var. Bu resurslar vasitəsilə ümumilikdə 30 min nəfərə yaxın istifadəçi Mərkəzin fəaliyyəti və onun ayrı-ayrı layihələri barədə ətraflı məlumat alır.

# ELEKTRON MÖVCUDLUQ

## Rəqəmsal resurslar

İİTKM-in balansında hər bir layihənin daimi sosial media hesabı da daxil olmaqla, ümumilikdə 27 rəqəmsal resurs var




- ereforms.gov.az
- monitoring.gov.az
- azexport.az
- enterpriseazerbaijan.gov.az
- dth.az
- azranking.az
- boyukqayidish.gov.az
- azerbaijan2030.gov.az
- nakhchivan2027.monitoring.gov.az
- journal.ereforms.org
- volunteer.ereforms.gov.az
- myexport.az

## Sosial media hesabları




/iqtisadiislahat

/iitkm

/company/center-for-analysis-of-economic-reforms-and-communication

/company/center-for-analysis-of-economic-reforms-and-communication

/iqtisadiislahat

YouTube /Center for Analysis of Economic Reforms and Communication

# İslahat könüllüləri

2016-cı ildə İİTKM-in nəzdində başlayan könüllülük fəaliyyəti Azərbaycanda "Könüllülər İli" kimi qeyd olunan 2020-ci ildə İslahat Könüllüləri Təşkilatına çevrilib.

# İSLAHAT KÖNÜLLÜLƏRİ

## Könüllü ol, inkişaf et

Təşkilat 2023-cü ilə qədər keçən dövr ərzində 500-dək könüllünü bir araya gətirib.




## İslahat könüllülərinin təhsil və əmək fəaliyyəti

İslahat könüllüləri ABŞ, Fransa, Kanada, Estoniya, Macarıstan, Türkiyə, Rusiya və bir çox digər dövlətlərin nüfuzlu universitetlərində təhsil alırlar. Onların bir qismi dövlət qurumlarında və özəl sektorda, eləcə də beynəlxalq təşkilatlarda çalışır.

## İslahat könüllüsü olmağın faydaları

İslahat könüllüləri innovativ layihələrin ərsəyə gəlməsində, eləcə də, proqram təminatı, müxtəlif tədbirlərin təşkili, elmi araşdırmalar və tədqiqat işlərində yaxından iştirak edirlər. Beynəlxalq və yerli ekspertlər, eləcə də İİTKM-in əməkdaşları könüllülər üçün əsasən iqtisadi mövzularda təlimlər təşkil edirlər, həmçinin təqdimatlarla çıxış etmələri üçün onlara şərait yaradılır. Bundan başqa, universitetlərin sonuncu kurs tələbələrinə İİTKM-də istehsalat təcrübəsi keçmək imkanı verilir.

İİTKM mütəmadi olaraq Könüllü Proqramı elan edir. Siz də islahat könüllülərinə qoşularaq maliyyə, insan resursları, ictimaiyyətlə əlaqələr, informasiya texnologiyaları, qrafik dizayn, rəqəmsal və yaşıl iqtisadiyyat sahələrində geniş təcrübə imkanı qazana bilərsiniz.

Könüllü proqramı üçün qeydiyyat linki **https://volunteer.ereforms.gov.az/az/be-volunteer**

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az